# HƏZRƏTİ  LI ( )IN Ş XSIYY TI

<"xml encoding="UTF-8?>

Adı:  li

Ləqəbi:  mirəl-möminin

Künyəsi:  bül-Həsən

Doğulduğu tarix: Hicrətdən 23 il əvvəl

Xəlifəliyi: Hicrətdən 35 il sonra

Xəlifəlik müddəti: 5 il

Ömrü: 63

Şəhadəti: Hicri 40-cı ildə xaricilərdən olan Ibni Mülcəm (lə) adlı bir şəxs .tərəfindən qətlə yetirilmişdir

.Məzarı: Iraq, Nəcəf şəhəri

**T V LLÜDÜ**

Peyğəmbərin hicrətindən 23 il qabaq, cümə günü Rəcəb ayının 13-də  bu Talibin ailəsində təkcə Məkkəyə deyil, bütün dünyaya nur saçan mübarək bir uşaq .dünyaya gəldi

Bu təvəllüd haqqında Məkkə əhalisindən Qunəb adlı birisi belə deyir: Abbas ilə oturmuşduq ki, birdən əsəd qızı Fatimənin sancı çəkərək Kəbəyə tərəf getdiyini :gördük. O belə deyirdi

Ey Allahım! Sənə və peyğəmbərinə inanıram. Sənin əmrinlə bu evi tikən» peyğəmbərin (Ibrahimin), eləcə də bətnimdəki uşağın izzəti hörmətinə bu körpənin

.«dünyaya gəlişi əziyyətini mənim üçün asan et

Elə həmin andaca Allah evinin yarılaraq, Fatimənin oraya girməsini daha sonra isə divarın bir-birinə yaxınlaşaraq bitişib bağlanmasını öz gözlərimizlə gördük. Hamımız qorxudan titrəyirdik. Daha sonra ayağa qalxdıq və sürətlə Kəbəyə sarı qaçdıq ki, qapını açıb arvadlarımızı Fatiməyə kömək etmək üçün içəri göndərək. Amma nə qədər çalışdıqsa qapını aça bilmədik. Bu qəribə xəbər çox sürətlə Məkkənin hər tərəfinə yayıldıqda hamı bundan heyrətləndi. Məkkə qadınları Fatimə ilə görüşü həyəcanla gözləyirdilər. Nəhayət dörd gündən sonra Fatimə :qucağında gözəl bir uşaqla Kəbədən bayıra çıxıb dedi

Allah qadınlar arasında məni seçdi, Onun evində ikən mənim üçün cənnət» .«xörəklərindən və meyvələrindən göndərdi

Həzrət Fatimə evinə doğru gedən zaman ətrafına yığışan qadınların «uşağın adını nə qoyacaqsan?» - deyə verdikləri suala belə cavab verdi: «Allahın hərəmində .«əyləşdiyim vaxt nagahan səs eşitdim: uşağın adını  li qoy

Bəli haqqında danışdığımız həzrət  li əleyhissalamdır. O, ülvi şəxsiyyət körpəlik və uşaqlıq dövranını təmiz, pak bir şəkildə başa vurdu. Necə ki, həzrətin özü də bu :barədə «Nəhcül-bəlağə»də belə buyurur

Uşaqlığımda Peyğəmbər (s) məni qucağına alıb köksünə sıxar və yeməyi» .«çeynəyib ağzıma qoyardı

UŞAQLIQ DÖVRÜ

Həzrət  li əleyhissalamın özü bu dövr barədə belə buyurur: «Peyğəmbər hər il Hira dağına gedər və onu məndən başqa heç kəs görməzdi. Islamın hələ evlərə yayılmadığı ilk anlarda, təkcə Peyğəmbər ilə həyat yoldaşı Xədicə müsəlman olmuşdular. Mən isə vəhy və risalət nurunu görüb nübüvvət ətrini duyan ikinci «.şəxs idim

Peyğəmbərin qohumlarını islama dəvət etmək üçün Allah əmri nazil olanda, həzrət  li əleyhissalam Peyğəmbərin (s) yaxın adamlarından qırx nəfəri o həzrətin .evinə qonaq çağırmışdı. Xörəyin azlığına baxmayaraq artıq hamı yeyib doymuşdu

:Şam yeməyindən sonra Peyğəmbər (s) məclisdəkilərə xitab edərək buyurdu

Ey  bdülmüttəlib övladları! Allah mənə sizləri çağıraraq islamı sizlərə» tanıtdırmağı əmr edib. Hər kəs mənə kömək edib dinimə iman gətirərsə, mənim «.qardaşım və xəlifəm olacaqdır

Peyğəmbər (s) bu mətləbi üç dəfə təkrar etsə də  lidən başqa heç kəs ona cavab vermədi. Həzrət Peyğəmbər (s) hər dəfə öz istəyini təkrar etdikdə yerindən qalxıb həzrətin əlindən tutan və ona iman gətirdiyini elan edən yeganə şəxs hələ uşaq yaşında olan həzrət  li əleyhissalam idi. Elə bu əsnada Peyğəmbərimiz belə :buyurdu

 li mənim qardaşım və xəlifəmdir. Onun sözünə qulaq asın və əmrlərinə itaət» .«edin

G NCLIK DÖVRÜ

Həzrət  li əleyhissalam artıq uşaqlıq və yeniyetməlik dövrünü geridə qoyub qüdrət və qüvvət çağı olan gəncliyə çatmışdı. Eynilə bir kəpənəyin şamın başına fırlandığı kimi, həzrət  li əleyhissalam da həzrət Peyğəmbərin (s) başına fırlanaraq, biləyinin .gücündən islamın və Peyğəmbərimizin xeyrinə istifadə edirdi

Misal üçün Hüneyn müharibəsində müsəlmanlar məğlub olub qaçdıqları vaxt Peyğəmbərin ətrafında gəzib onun vücudunu qoruyan və düşməni qorxudan təkcə .həzrət  li əleyhissalam idi

Xeybər müharibəsində kafirlərin sərkərdəsi olan, eləcə də hamının gücü və cəsarətindən qorxduğu Məhrabı yerə yıxmışdı, iyirmi nəfərin güclə açıb bağlaya bildiyi qapını qaldıraraq xəndəyin üstünə atmış və onu əsgərlərin üstündən keçə

.biləcəyi bir körpüyə çevirmişdi

Buna oxşar yüzlərlə misal həzrət  li əleyhissalamın iman və fədakarlığının açıq .dəlili tutarlı bir sübutudur

LI  LEYHISSALAMIN F  DAKARLIĞI

Insan məhz özünü çox sevdiyi və canını başqasına fəda etmədiyi bir halda, həzrət  li əleyhissalam islamı və Peyğəmbəri (s) özündən daha çox sevdiyinə görə canını .Peyğəmbərin yolunda fəda etməyə həmişə hazır idi

Bu hadisə Məkkə müşriklərinin özlərinin məğlubiyyət təhlükəsi ilə qarşı-qarşıya gördükdə bu barədə mühüm bir qərar çıxarmaq üçün toplandıqları zaman baş .vermişdi

Onların hamısı Darün-nədvə adlı bir yerdə yığışaraq geniş müzakirədən sonra belə qərara gəldilər. Hər qəbilədən bir nəfər seçiləcəkdir ki, onlar gecə vaxtı Peyğəmbərin evinə həmlə edərək onu öldürəcəklər. Beləliklə bütün qəbilələr onun qanını tökməkdə şərik olduqlarına görə heç kim intiqam almağa təşəbbüs .göstərməyəcəkdir

Onların bu planını Allah öz Peyğəmbərinə bildirmiş və ona hələ gecə ikən evindən çıxıb Məkkədən hicrət etməsini əmr etmişdi. Lakin Peyğəmbər (s) bu hədəf üçün canını fəda etməyə hazır olan etibarlı bir sirdaş axtarırdı. Bu fədakarlığı yalnız .həzrət  li əleyhissalam öz öhdəsinə götürə bilərdi

Məhz elə buna görə də Peyğəmbər (s) əhvalatı həzrət  li əleyhissalama danışdı. Bu fədakar və mömin cavan üzündə təbəssüm sevinərək bu işi bütün varlığı ilə .qəbul etdi

Gecənin qaranlığı hər yeri bürümüşdü.  li (ə) Peyğəmbərin yatağında arxayın və ürək rahatlığı ilə yatmışdı. Həzrət Peyğəmbər (s) də artıq evindən çıxıb Məkkənin kənarında olan Sövr mağarasına getmişdi. Qüreyşli qatillər evi mühasirə edib

.əllərində qılınc və bıçaq həmləyə hazırlaşmışdılar

Həmlə əmri verildikdə onların hamısı siyrilmiş qılıncla Peyğəmbərin evinə girib yatağına tərəf hücum etdilər. Lakin birdən-birə yataqdakının  li olduğunu gördükdə sarsılmış və narahatlıqla Peyğəmbərin evini tərk edib dərhal atlıları o həzrətin dalınca göndərmişlər. Lakin çox keçmədi ki, əliboş və ümidlərini itirərək .geri qayıtmışlar

LI ( ) V  ALLAH YOLUNDA MÜHARIB

Islam həyat və sülh dinidir. Bu müqəddəs din insanların öldürülməsi ilə müxalifdir. Bu din günahsız bir insanı öldürən kimsəyə belə ağır cəzalar tətbiq edir. Lakin daxili və xarici düşmənlər müsəlmanlara qarşı təcavüzə əl atdıqda, o zaman bu müqəddəs din ağıl və şəriətə əsasən müdafiə etməyi əmr edir. Bu isə islam .cihadının bir hissəsidir

Həzrət Peyğəmbərin (s) müdafiə xarakteri daşıyan bütün müharibələrində həzrət  li əleyhissalam, saf ruhlu bir igid təkin, Peyğəmbərlə çiyin-çiyinə islam yolunda .var qüvvəsilə döyüşürdü

O, Allahdan başqa heç bir şeydən qorxmayan bir mömin bəndə, eləcə də yorulmaz bir mücahid sayılırdı. O, belə deyərdi: «Allaha and olsun ki, əgər haqqı bir tərəfdə və bütün xalqı da batil olaraq haqq müqabilindəki digər tərəfdə görsəm, haqq uğrunda tək-tənha qılınc oynadar, onların qabağında inamla duraraq bu yoldan bir .«an belə geri dönmərəm

**LI  LEYHISSALAMIN  D BI**

Islam hökumətinin mərkəzi Kufə şəhəri idi. Elm öyrənməkdən ötrü dünyanın hər .tərəfindən bu böyük islam mərkəzinə axışırdılar

Bir gün şəhər qırağında iki nəfər bir-biri ilə rastlaşmışdı. Bunlardan biri həzrət  li əleyhissalam o birisi isə onu tanımayan bir xristian idi. Xristian Kufə şəhərinin

ətrafındakı bir məntəqəyə, həzrət  li əleyhissalam isə Kufəyə gedirdi. Onlar birlikdə olduqları müddətdə darıxmamaq üçün söhbətə başladılar. Yol ayrıcına çatdıqları vaxt xristian xudahafiz deyib yoluna davam etdi. Ancaq müsəlman yoldaşının, yolu başqa tərəfə olduğuna baxmayaraq onunla bir gəldiyini görüb ?heyrətlə soruşdu: Məgər siz Kufəyə getmirdiniz

.həzrət  li əleyhissalam buyurdu: Bəli

Xristian: Bəs onda nəyə görə bu tərəfə gəlirsiniz? – deyə soruşduqda həzrət  li :əleyhissalam cavab olaraq buyurdu

Bir az səninlə birgə yerimək istəyirəm. Çünki Peyğəmbərimiz belə buyurub: *«Iki» nəfər yol yoldaşı olduqda bir-birlərinə haqq sahibi olurlar»*. Indi sənin mənim boynumda haqqın var ki, mən də bu haqqı ödəmək üçün səninlə bir az gələcəyəm. Beləliklə, haqqını bu dünyada ödəyəcək və sonra arxayınlıqla öz yoluma davam .«edəcəyəm

həzrət  li əleyhissalamın bu insani rəftar və davranışı xristianın xoşuna gəlib öz-özünə dedi: «Islam əgər belə bir mədəni dindirsə, tərəfdarları bu qədər ali insanlardırsa, mən də gərək müsəlmanlığı qəbul edəm». Yoldaşının islam rəhbəri həzrət  li əleyhissalam olduğunu bildikdə daha da heyrətlənən xristian dərhal  li .əleyhissalamın hüzurunda müsəlmanlığı qəbul edib islama iman gətirdi

## H ZR T  LININ ÖZÜNÜ  L  ALMASI

Insan təbii şəraitdə özünü daha yaxşı ələ ala bilər. Belə ki, müxtəlif pislik və günahlardan çəkinərək iradəsinə hakim olar. Lakin qəzəb, hirs və əsəbləşdikdə insanın haqqı görməsi və Allahı xatırlaması olduqca çətin və ağırdır. Buna görə də .cinayətlərin çoxu adətən insanın normal vəziyyətdən çıxdığı vaxt baş verir

Amma kamilliyə çatıb, nəfsini tərbiyə etmiş həzrət  li əleyhissalam kimi ülvi bir insanın rəftar və davranışı da digər insanlardan fərqlidir. Hər hansı bir vəziyyətdə olursa olsun yalnız Allahın razılığını nəzərdə tutur, Allaha görə olmayan işlərdən

.çəkinirdi

Istər evdə olsun, istər müharibə meydanında, istər sevincli anlarında olsun, istərsə də əsəbləşəndə onun üçün heç bir fərqi yox idi. Məsələnin daha da :aydınlaşmasından ötrü o həzrətin müharibə meydanındakı rəftarına diqqət yetirək

Bütün Mədinə xalqının şəhər ətrafında böyük xəndəklər qazaraq, düşmənin yolunu bağlamaq üçün, su ilə doldurduğu Xəndək müharibəsində məşhur ərəb cəngavəri mr ibni bdüvəd düşmən əsgərləri arasında dolanaraq döyüşmək üçün özünə rəqib axtarırdı. Müsəlmanlar arasında onunla döyüşə girməyə heç kəs cəsarət .etmirdi

Elə bu vaxt həzrət li əleyhissalam mətn addımlarla irəli addımlayıb iman dolu qəlbi ilə onun qarşısına çıxaraq belə buyurdu: «Ey mr! Başından yekə danışma! «!Səninlə döyüşmək istəyən qarşındadır

mr həzrət li əleyhissalama baxıb lovğa-lovğa dedi: Geri qayıt! Səni öldürmək .istəmirəm. Çünki atanla dost olmuşam

li (ə) ona belə cavab verdi:«Allaha and olsun ki, mən isə səni öldrümək .«istəyirəm

Bu sözdən hirslənib atından düşən mr qılıncını siyirərək həzrət li əleyhissalama .həmlə etdi. Lakin qılınc şiddətlə linin qalxanı ilə toqquşduqda həmləsi boşa çıxdı

Daha sonra həzrət li əleyhissalam onu yalnız bir zərbə ilə yerə yıxıb öldürmək üçün sinəsinin üstündə oturdu. Bu zaman mr həzrət li əleyhissalamın mübarək üzünə tüpürdü. həzrət li əleyhissalam birdən mrin sinəsi üstündən qalxıb bir müddət meydanda yeridikdən sonra təzədən mrə tərəf getdi. mr soruşdu: O cür «?zərbədən sonra məni buraxmağının mənası nədir

Həzrət li əleyhissalam buyurdu: «Ey mr! Mən Allah üçün qılınc çəkirəm, öz nəfsim üçün yox. Səni yerə yıxıb sinən üstündə oturduğum vaxt üzümə tüpürdün

və məni hirsləndirdin.  gər o anda səni öldürsəydim, savab qazanmayacaqdım. Çünki artıq əsəbləşmişdim. Buna görə də sənin üstündən qalxdım və bir az yeriyib .«hirsimi yatırtdım

Həzrət  li əleyhissalamın şücaəti, səbri və nəfsinə hakim olması ərəb pəhlivanı  mrə çox böyük təsir etmişdi. Hamı istər dost, istərsə də düşmən, həzrət  liyə diqqət yetirirdi. Dostların dilindən təkbir səsləri ucalarkən, düşmənin canını artıq qorxu bürümüşdü ki, bu da düşmənin tam məğlubiyyətinə zəmin hazırlamışdı. Həzrət Peyğəmbər (s)  li əleyhissalamın bu səciyyəvi qələbəsi haqqında belə :buyurmuşdu

 linin Xəndək müharibəsində gördüyü iş və endirdiyi zərbənin dəyəri Allah» .«yanında insanların və cinlərin ibadətindən daha çox və üstündür

## H ZR T  LININ MEHRIBANLIĞI

Həzrət  li əleyhissalamın müharibə meydanında göstərdiyi qəhrəmanlıq və igidliyini müşahidə etdik, lakin qəhrəman və qorxmaz bir insanın əgər mərhəmət və mehribanlığı olmazsa, o qəhrəmanlığın heç bir dəyəri yoxdur. O, müharibə meydanında yeridikdə yaralıların, acların və susuzların halını gözləyirdi. Quduz düşmənləri öldürər ac yaxud susuz bir düşmən əsgəri ilə qarşılaşıb üzbəüz .gəldikdə isə ona rəhm edib, yarasını müalicə edərdi

Düşmənlərlə qəhrəmanlıqla döyüşərdi. Lakin heç vaxt düşməni ac və susuz öldürməz, ev və ocaqlarını dağıtmazdı. Çünki o, belə rəftar və davranışın imana .zidd olmasını bilirdi

Məhz elə buna görə də Siffeyn müharibəsində suyu Müaviyə ordusunun əlindən almağa müvəffəq olduğu halda, əsgərlərinə əmr etdi ki, onu bağlamasınlar. Eləcə .də düşmən əsgərləri sudan istifadə etmək istədikdə onlara mane olmasınlar

Bu zaman həzrət  li əleyhissalamın ordusunda olanlar etiraz edib dedilər: Düşmən bizi sudan uzaqlaşdıraraq bununla da bizləri təslim olmağa məcbur etmək

istəyirdilər.  gər eyni işi biz də görsək, biz də mütləq müvəffəq olar, bu .müharibədə qələbə çalarıq. Gərək bu fürsətdən istifadə edək

 li (ə) onların cavabında belə buyurdu: «Xeyr, biz düşmələ kişi kimi döyüşəcəyik. Biz belə işləri mərhəmət və şəfqətə zidd hesab edirik.  gər onların gördüyü işi biz də görməli olsaq o zaman onlarla aramızda olan fərq nədir? Bilin ki, bütün işlər «.Allah üçündür və biz də Onun əmrinə zidd rəftar etməməliyik

## LI  LEYHISSALAMIN R HB RLIK DÖVRÜND KI DAVRANIŞLARI

*Xalq ilə birgə* .1

Bütün çətinliklərə baxmayaraq  li (ə) şəxsən özü xalqın işlərinə yetişir, onların ağır problemləri ilə yaxından tanış olurdu. Heç vaxt o, düşmənlə şəxsi qərəzlik üzündən düşmənçilik etməzdi. Hətta onların maaşlarını da beytul-maldan verərdi. Dostlarına isə dostluqlarına görə, güzəştə getməzdi.  trafındakılara isə həmişə xalqla ədalətli və insaflı davranmalarını əmr edərdi. Qurana zidd olan işləri əsla .bağışlamazdı

Misal üçün Sudə adlı bir qadın haqqını almaq üçün onun yanına gəldikdə, həzrət namaz qılırdı.  li (ə) namazını tez qurtarıb təbəssümlə ondan soruşdu: «Nə istəyin var?» Gözü yaşlı Sudə vergi məmurundan və onun etdiyi zülmlərdən o həzrətə .şikayət etdi

Həzrət  li əleyhissalam elə həmin yerdə ağlayaraq buyurdu: «Allahım! Sən şahidsən ki, mən onlara Sənin bəndələrinə zülm etməmələrini əmr etmişəm». Sonra bir dəri parçası götürüb məmurunu məmurluq vəzifəsindən azad etdiyini .yazıb məktubu Sudəyə verdi ki, aparıb həmin məmura çatdırsın

Daha sonra  li (ə) belə buyurdu: «Allaha and olsun, əgər əlimdə olan bu vəzifədən məzlum insanların qurtuluşu üçün istifadə edə bilməsəm, əgər zülmün qarşısını ala bilməyib haqqı bərpa etməyi bacarmasam, bu vəzifə mənim üçün köhnə ayaqqabıdan da dəyərsiz olacaq. Rəhbərlik və xəlifəlik mənim üçün hədəf deyildir.

Bu məqam ona görədir ki, ondan məhrum və məzlum xalqların xeyrinə istifadə «.edəm

*Ayrı-seçkiliyin aradan qaldırılması .2*

:Xalq həzrət  li əleyhissalama beyət edikdə o həzrət minbərə çıxıb buyurmuşdu

Allaha and olsun, o zamana qədər ki, Mədinədə tək bir xurma ağacım var, özümə» .«beytül-maldan bir şey götürməyəcəyəm

Qardaşı  qil ayağa qalxıb dedi: «Məni Mədinədə yaşayan zənci ilə bir tutursan?»  li (ə) belə buyurdu: «Otur qardaşım, sənin o zənci ilə müqayisədə iman və təqvandan başqa heç bir üstünlüyün yoxdur». Daha sonra  li (ə) elan etdi ki, .hökumətində ayrı-seçkiliyə yol verməyəcəkdir

Yenə bir yay axşamı qardaşı  qil, qardaşını evinə şama qonaq çağırmışdı. O güman edirdi ki, bununla da maaşının çoxaldılmasını həzrət  li əleyhissalama qəbul etdirə biləcəkdir.  li əleyhissalam belə buyurdu: «Hazrıladığın bu şamın «?pulunu haradan qazanmısan

 qil cavabında belə dedi: «Mən və arvadım öz şəxsi xərclərimizi azaldıb qalan pulu .«yığıb sənən yaxşı yemək hazırlamaq istədik

Həzrət  li əleyhissalam belə buyurdu: «Sabahdan sənin aylıq maaşını sənə kifayət edəcək qədər verəcəyəm (yəni azaldacağam). Çünki etiraf etdiyinə görə bir az .«qənaət edəndə daha az xərcləyirsən

 qil qardaşının sözlərindən hirslənib çığır-bağır salmağa başladıqda həzrət  li əleyhissalam yanındakı dəmiri odda qızdırıb qardaşının əlinə basdı.  qil qırşqırıb «vay yandım» - dedi. həzrət  li əleyhissalam bu zaman belə buyurdu: «Qəribədir, sən mənim yandırdığım oddan qorxub qışqırdığın halda necə olur ki, öz rahatlığın üçün Allahın mənə hazırladığı əzab odunda yanmağıma razı olursan. Bu var-.«dövlət xalqındır və mən də onların etibar etdikləri adamam

Yenə də şahid oluruq ki, onun yanında çalışan məmurlardan bəzisi həzrətin bu mövqeyinə etiraz edib belə deyirlər:  gər üsyan edənlərə və qoşun başçılarına bir az artıq qiymət versəydin, yenicə qurulmuş bir islam sistemini daha yaxşı idarə .etmək qüdrət və ədalətlə hökumətə rəhbərlik edə bilərdin

Imam (ə) isə onların cavabında buyururdu: «Çox qəribədir, siz məndən islam naminə qurulmuş hökumətin təməlini zülm və ədalətsizlik üstündə qurmağımı tələb edirsiniz? Allaha and olsun ki, əsla bu işi görmərəm! Hətta bütün müsəlmanların dövləti mənim olsa belə yenə də belə bir işə girişmərəm. Halbu ki, .«bu mallar xalqındır və mən onların etibar etdiyi bir nəfərəm

Bir gün Bəsrə valisi Hüneyfin oğlunun əşraflarından birisinin qonağı olduğunu və fürsət gözləyən qaniçənlərin isə onun siyasi mövqeyindən istifadə edəcəklərini eşitdikdə həzrət  li əleyhissalam çox hirsləndi və onu məzəmmət edəcək bir məktub yazıb onun üçün göndərdi: «Eşitmişəm yoxsulların olmadığı dövlətlilərin süfrəsində oturubsan. Bunu bil ki, sənin rəhbərin və imamın olan mən, əgər istəsəm ən yaxşı və ləziz yeməkləri yeyə bilərəm. Amma mən heç vaxt bu işi görmədim. Çünki məmləkətdə ac qarnına yatanlar ola bilər. Mən sizin dünyanıza təkcə xurma və çörəkdən ibarət az bir xörəklə və sadə bir paltarla qənaət etdim. Siz mənim kimi ola bilməsəniz də çalışın ki, yolunuz məndən ayrılmasın». Həzrət  li əleyhissalam bu məktubla ona xəbərdarlıq edərək öz rəhbərlik borcunu yerinə .yetirdi

Imam əleyhissalamın həyatı başdan-başa ədalətlə zəngindir. Bir gün o həzrətin düşməni olan Müaviyə onun əshabından biri olan  diy ibni Hatəm ilə qarşılaşıb ona belə sual verdi:  lini imamət və xəlifəliyi zamanında necə gördün? O, isə cavabında «quldurlar onun hökumətində quldurluq edə bilməz, gücsüzlər isə onun .ədalətindən həmişə faydalanıb ümidsizliyə düşməzlər» - deyə söylədi

Həzrət  li əleyhissalamın özü də həmişə belə buyurardı: «Xalq məni özünə rəhbər və xəlifə seçdiyi halda, camaatın müxtəlif problem və çətinliklərinə şərik olmağım

«?zəruri deyilmi

Tarixdən məlum olduğu kimi, bir gün qoşun başçıları keçmiş səhabəsi olan Ibni Abbas ilə birlikdə onun hüzuruna gəldikdləri zaman rəhbərlərinin ayaqqabısını yamaqlamaqla məşğul olduğunu gördülər. li (ə) onlara belə buyurdu: «Bu «?ayaqqabının dəyəri nə qədərdir

.Ibni Abbas dedi: Onun dəyəri bir neçə dirhəmdən artıq olmaz

Həzrət li əleyhissalam buyurdu: «Allaha and olsun ki, əlimdə olan bu vəzifədən zülmün qarşısını almaq və haqqı bərpa etmək üçün istifadə edə bilməsəm, mənim «.üçün bu ayaqqabıdan daha dəyərsizdir

Yəni bu məqam və rəhbərlik mənim üçün hədəf olmayıb, yalnız məhrum xalqların .xeyrinə istifadə etmək üçün yeganə vəsilədir

*Şikayətləri araşdırmaq* .3

Həzrət li əleyhissalam öz hökuməti və rəhbərliyi dövründə şəxsən şikayətləri .dinləyərək məsələləri özü həll edirdi

gər bir nəfərin şikayəti olsaydı, imamın yanına rahatlıqla gəlib şikayətini ona söyləməsi üçün, yayın isti günlərində xalqın istirahət etdiyi bir divarın kölgəsində .oturardı

Isti günlərin birində həzrət yenə də bir divarın kölgəsində oturmuşdu. Bir qadın ona tərəf gəlib narahatlıqla dedi: rim mənə zülm edib bu istidə məni evdən çölə .atıb. O, həzrət li əleyhissalamdan bu məsələni həll etməsini xahiş etdi

Həzrət li əleyhissalam belə buyurdu: «Ay xanım, hava çox istidir. Hava sərinləyənə kimi dözə bilsən, yaxşı olar. Onda mən də səninlə birlikdə bu məsələyə sərəncam çəkərəm.» Qadın belə dedi: Qorxuram ərim yenə hirslənsin. ! gər mümkünsə tez gedək

li əleyhissalam qadına belə buyurdu: Yaxşı, sən get! Mən də dalınca gəlirəm. li (ə) o qadınla birlikdə gedib o cavan oğlanın qapısını döydü. Qapıya gələn ev yiyəsi . li (ə) tanımamışdı. Amma başa düşmüşdü ki, arvadı bu kişini köməyə çağırıb

li əleyhissalam ev yiyəsinə belə dedi: Bu xanım deyir ki, sən onu evdən qovmusan. Mən gəlmişəm ki, sənə nəsihət verib deyəm ki, Allahdan qorxub arvadınla yaxşı rəftar edəsən. Məğrur cavan həzrət li əleyhissalama pis sözlər söylədikdən sonra dedi: Bunun sənə heç bir dəxli yoxdur. Mən istədiyim işi .görərəm. Hələ üstəlik səni də öz yanında gətirdiyinə görə vay olsun onun halına

Imam (ə) cavan oğlanın sözlərindən narahat olub etiraz edərək səsini ucaltdı və onu cəzalandırmaq üçün əlini qılıncına tərəf apardı. Imamın səsini eşidən camaat evlərindən bayıra çıxmağa başladılar. Camaat li əleyhisaalamı görüb ehtiram ilə qabağa gəlib salam verdilər. Bunu görən cavan oğlan başa düşdü ki, qarşısında duran həzrət li əleyhissalamdır. Bilmirdi ki, nə etsin. linin ayaqlarına düşüb üzr istəməyə başladı: Nə əmr etsəniz itaət edəcəyəm və bundan belə arvadımla yaxşı .rəftar edib onu narahat etməyəcəyəm

li əleyhissalam isə belə buyurdu: «Inşaallah elə olarsan». Daha sonra qadına .tərəf dönüb dedi: Evinə qayıt. Inşaallah sən də ərinə yaxşı arvad olarsan

### Q DIRI-XUM HADIS SI

Həzrət Peyğəmbər (s) hicrətin onuncu ilində həcc mərasiminin təntənəli bir şəkildə yerinə yetirilməsi üçün Allah evinə getmişdi. Çünki bu, Həzrət Peyğəmbərin (s) sonuncu həcci idi. Mərasimlər nizam-intizamla yerinə yetirildikdən sonra, Peyğəmbər (s) ilə əshabı Mədinəyə qayıdırdılar. Yol boyu Həzrət Peyğəmbər (s) ümməti üçün vəfatından sonra baş verəcək hadislərədən .ötrü çox nigaranlıq keçirirdi

Xalq arasında münafiqlər və onun ölümünü gözləyənlər xilafət və rəhbərliyi əsl .yolundan azdırmaq üçün qabaqcadan planlar hazırlamışdılar

O, dost paltarına bürünüb ona hörmət edən münafıqləri görür, amma müşriklərin «Məhəmməd öz adamlarını öldürür» demələrinin qabağını almaq üçün səsini çıxarmırdı. O, bir tərəfdən gələcəkdəki hadisələri görür, digər tərəfdən isə Allahın li (ə) haqqında əmr etdiyi borcunu yerinə yetirmək məcburiyyətində qaldığını hiss .edirdi

Həmin borc li əleyhissalamı xəlifə təyin etmək idi. Onu özünə xəlifə və canişin seçməklə «peyğəmbər bizi xəlifəliyə seçdi» - deməklə xalqın arasında şək-şübhə .yaradanların planlarını puça çıxarmaq niyyətində idi

Vəhy mələyinin Həzrət Peyğəmbərin (s) ruh və qəlbinə nazil etdiyi vəhyin səsi qulaqlarında əks-səda verir: «Böyük bir borcun var. gər bu borcu yerinə yetirməsən, elə bir risalətini təlbiğ etməyibsən. Bil ki, Allah səni düşmənlərin hiylə «.və tələlərindən qoruyacaqdır

Belə bir risalət günəşinin vəkaləti, vilayət günəşi olmalı idi ki, Peyğəmbərin (s) bütün kamal və dəyərlərinə sahib idi. Bu şəxsiyyət li ibni bu Talibdən başqa kim ola bilərdi? O li ki, Peyğəmbər dəfələrlə onu xalqın arasında tərifləyib buyurmuşdu: « li ümmətimin ən bilicisidir. Mən elmin şəhəriyəm, li də onun .«qapısıdır. Hər kəs mənim elmimi öyrənmək istəyirsə, liyə müraciət etsin

Elə buna görə də həzrət li əleyhissalam minbərdə həmişə belə deyərdi: «Ey «!camaat! Məni əldən verməmişdən əvvəl, istədiyinizi soruşun

Allahın əmrinə görə həzrət Peyğəmbər (s) Allahın buyurduğu şəkildə islam dinini təkmilləşdirmək üçün li əleyhisslamı xəlifəliyə seçmək qərarına gəldi. Və qədir günü Allahın öz Peyğəmbərini təbrik edib müjdə verərək «Bu gün islam dinini mükəmməl edib sizlərə nemətimi tamamladım» - dediyi gün olaraq tarix .səhifələrinə yazıldı

Demək, bu müqəddəs bir qayıdış eləcə də bərəkətli bir həcc idi. Yüz iyirmi mindən .çox insan Peyğəmbərlə birlikdə idilər

Onların hamısı Zil-həccə ayının 18-də Cöhfə deyilən yerdə Qədiri-xum adlı məntəqəyə çatdıqları vaxt Həzrət Peyğəmbər (s) karvanların dayanmasını əmr etdi. Peyğəmbərin (s) əmri ilə hamı o isti havada dayanıb öz-özlərinə fikirləşirdilər ki, mütləq əhəmiyyətli bir məsələ vardır ki, Peyğəmbər bizi bu istidə saxlayıbdır. .Onların düşündükləri kimi həqiqətən də bu mövzu çox əhəmiyyətli idi

Peyğəmbər üçün dəvələrin cihazından ibarət bir minbər düzəltdilər. Bir neçə nəfəri .də camaatın arasında Peyğəmbərin sözlərini təkrar etmələri üçün yerləşdirdilər

:Həzrət Peyğəmbər (s) ətrafındakı əshabı ilə gəlib minbərə çıxdı və belə buyurdu

Ey camaat! Mən peyğəmbərlik vəzifəmi yerinə yetirib var qüvvəmlə çalışdım.» Bilin ki, özümdən sonrakılar üçün iki dəyərli şeyi (əmanəti) qoyub gedirəm. Bu ikisi :bir-birindən heç vaxt ayrılmazlar

.Allahın kitabı

. hli-beytim

Daha sonra hamının görə bilməsi üçün həzrət li əleyhissalamın əlini uca bir :bayraq kimi qaldırıb buyurdu

Mən hər kəsin mövlasıyamsa, bilsin ki, li də onun mövlasıdır. Allahım! li ilə dost» olanla dost, düşmən olanla isə düşmən ol. Ona yardım edənə yardım et. Onunla müharibə edənlə düşmən ol. Ey burada olan müsəlmanlar, burada olmayanlara .«sözlərimi yetirin. Inşaallah ki, eşidib qəbul edərlər

**LI LEYHISSALAMIN X LIF SEÇILM SI**

Qüdrət və vəzifəyə çatmaq üçün islamı qəbul edən və özlərini Peyğəmbərlə birlikdə göstərməyə çalışanlar, xəlifəliyi Bəni Haşim nəslindən almaq üçün gizli .yığıncaqlar keçirirdilər

Onlar planlarını həyata keçirməkdən ötrü münasib bir fürsətin sorağında idilər.

Çünki bilirdilər ki, qarşılarında olan şəxsin islama xidmətlərini hamı təsdiqləyib. Peyğəmbər onun haqqında tövsiyə edib və Qədiri-xum günündə hamı ona beyət edibdir. Peyğəmbərin (s) vəfatından sonra həmin planlar ardıcıl surətdə həyata keçirilməyə başlamışdı. Belə ki, həzrət  li əleyhissalamı, o yüksək şəxsiyyəti susmaq məcburiyyətində qoymuşdular. Çünki o, təkcə islamı düşünür, məqam və vəzifəyə meyl göstərmirdi.  gər məsələni qılıncla həll etməyə cəhd etsəydi, düşmənlərinin arzusunu yerinə yetirmiş olacaqdı. Yəni islamdan heç bir əsər .qalmayacaqdı

 li (ə) və Fatimənin bu hadisələr qarşısında sükut etməsi, xüsusən də Osmanın hakimiyyətinə nüfuz etmiş  məvi dövlət adamlarının vəzifələrindən sui-istifadə etmələri və ədalətsiz rəftarları xalqı ayıltmışdı və artıq hamı başa düşmüşdü ki, islam xəlifəliyi siyasətçilərin əlində oyuncağa çevrilibdir ki, Allah ilə Peyğəmbərin .istəyi isə bu deyildir

Nəhayət xalqın narazılığı ən yüksək zirvəsinə çatdığından inqilab qığılcımı xalq .kütlələrinin ürəyində alovlanmağa başlamışdı

Vəziyyətdən bezmiş xalq coşqun bir sel kimi Osmanın evinə tərəf axıb onu .qılıncdan keçirmişdilər

Xalq o qədər coşmuşdu ki, həzrət  li əleyhissalamın Osmanın canını qurtarmaq üçün göndərdiyi imam Həsən (ə) və imam Hüseyn əleyhissalamın sözünə də qulaq asmamışdılar. Camaat qılınclarından qan damarkən və həyəcan odunda yanarkən həzrət  li əleyhissalamın evinə tərəf axışıb böyük bir məhəbbət və sevinclə onu özlərinə tərəf çəkib beyət etdilər və beləliklə, onu özlərinə xəlifə və .rəhbər seçdilər

### ? LI  LEYHISSALAMIN HÖKUM TI N  ÜÇÜN M ĞLUBIYY T  UĞRADI

Həzrət  li əleyhissalam xalqla beyət etdiyi vaxt belə demişdi: «Mən haqqa əməl edəcəyəm və dinimi kimsənin dünyasına satmayacağam. Dəlilsiz heç kimi vəzifə

başına qoymayacağam. Təkcə onların keçmiş xidmətlərini nəzərdə tutacağam. gər məmurlarım xəta etsələr, onları bağışlamayacaq dərhal vəzifələrindən azad edəcəyəm. Heç bir məzəmmətdən qorxmayıb qətiyyətlə rəftar edəcəyəm. Beytülmalı hətta öz oğluma belə dəlilsiz verməyəcəyəm.» Amma təəssüflə həzrət li əleyhissalamın ədalətli hökumətini dünya malına düşkün olanlar bəyənməmişdilər. Onlar ilk addımda belə həzrət li əleyhissalamı tək qoyub əleyhinə üsyan etməyə başladılar. Təlhə və Zübeyr Osmanın intiqamını almaq üçün Mədinəyə gedib Ayişəni bu işə qol qoyması üçün təhrik etmişdilər. Onlar vaxtilə Peyğəmbərin həyat yoldaşı olan Ayişənin mövqeyindən istifadə edərək böyük bir qrupu öz ətraflarına yığıb qoşun ilə həzrət li əleyhissalama həmlə .etmişdilər

Çünki onlar axmaq adamlara demişdilər ki, guya Osmanın qatili lidir. Həmin hadisənin nəticəsində minlərlə müsəlmanın qanı tökülmüşdü və törədilən günahlar da li əleyhissalamın boynuna yıxılmışdı. Bu hadisədən sonra li (ə) tərəfindən vəzifəsindən azad olunan hiyləgər Müaviyə bu fürsətdən səmərəli istifadə etmək üçün vəziyyəti münasib görən kimi Şamda qiyam edib həzrət li .əleyhissalama qarşı müharibə elan etmişdi

Həmin müharibələr li (ə) ordusunda xaricilər adlı bir qrupun meydana gəlməsinədək davam etmişdi. Bu qrup nə li (ə), nə Müaviyə, nə də mr ibni Ası xəlifəliyə layiq görürdü. Onlar hökm yalnız Allahındır şüarı altında qiyamt etmək istəyirdilər. Nəhayət həzrət li əleyhissalamı şəhid etdilər. Amma Müaviyə və mr ibni Ası öldürə bilmədilər. Beləliklə li əleyhissalamın hökuməti məğlubiyyətə uğrayaraq o həzrətin özü də ədalətinin qurbanı oldu. Yəni əgər li (ə), Müaviyə .kimi, hiylə ilə hökumət etsəydi, heç kim onu öldürməyə cəhd edə bilməzdi

## H ZR T LI LEYHISSALAMIN Ş HAD TI

Nəhrəvan müharibəsindən sonra xaricilər adlı bir dəstə Məkkədə hər gün yığıncaqlar təşkil edib Nəhrəvanda ölənlər üçün ağlayırdılar. Bir gün onlar öz

aralarında belə bir fıkrə gəldilər ki, oturub ağlamağın mənası yoxdur. Islam hökumətini devirib qardaşlarımızı öldürən adamları məhv etməliyik.  vvəlcə  li, Müaviyə və  mr ibni Ası öldürmək lazımdır. Bu üç nəfəri öldürmək üçün könüllülər tələb olunduqda ibni Mülcəm (lə) ayağa qalxıb «mən  lini öldürəcəyəm» dedi. Daha sonra  mr ibni Bəkri Təmimi «mən də  mr ibni Ası öldürəcəyəm» söylədi. Bir .başqası da Müaviyəni öldürməyi öz öhdəsinə aldı

Onların üçü də and içib mübarək Ramazan ayının 19-u planlarını həyata keçirmək üçün münasib vaxt bildilər. Sonra isə qərarlaşdıqları günü gözləmək üçün öldürəcəkləri adamların yaşadıqları şəhərlərə yollandılar. Təəssüflər o iki nəfər .işlərində müvəffəq olmadılar, amma Ibni Mülcəm (lə) müvəffəq oldu

Ibni Mülcəm (lə) Kufəyə gəlib  li əleyhissalamın düşmənləri ilə əlaqə yaradaraq .Ramazan ayının 19-cu gününə qədər onların evində qaldı

Bir gün  li (ə) Kufə küçələrindən birində onunla qarşılaşdı. Ibni Mülcəm (lə) özünü gizlətmək istədisə də  li (ə) onu görüb belə buyurdu: «Kufəyə nəyə gəldiyini .«bilirəm

Bu sözləri eşidən Ibni Mülcəm (lə) qorxdu və ayaqları titrəməyə başladı. həzrət  li əleyhissalama belə dedi: Onda ey  li əmr et ki, məni öldürsünlər ya zindana .«atsınlar, ya da sürgün etsinlər

 li (ə) ona baxıb belə dedi: «Bu üç təklifdən hər birini sənin haqqında tətbiq edə bilmərəm. Amma islam dini öldürmə və cinayətdən qabaq qisası rəva görməz. .«Səni sərbəst buraxıram ki, bəlkə fıkrindən dönəsən

Nəhayət hicri 40-cı ilin Ramazan ayının 19-da Ibni Mülcəm (lə) namazda səcdə halında olan həzrət  li əleyhissalamın başına zəhərli bir qılıncla vurdu. Bununla da təqva və iman dağını yıxıb həzrət  li əleyhissalamı şəhid edərək islam dünyasını matəmə qərq etdi. həzrət  li əleyhissalamın mehrabdakı «And olsun Allaha ki, artıq qurtuldum» səsinin dalınca mələk Cəbrailin səsi yüksəldi: «Vallahi, hidayət

sütunları yıxıldı və li şəhid edildi.» Camaat li əleyhissalamın qatilini tutub imam Həsən-Müctəba əleyhissalama təhvil verdilər. Imamın yaralı bədənini isə öz evinə .apardılar

Imam li (ə) öz qatili barəsində oğlu Həsənə belə buyurdu: «Oğlum! Mənim qatilim olan bu adama xörək və su verin. Onu sərbəst buraxmayın. gər diri qalsam, ona nə edəcəyimi bilirəm. Amma əgər ölsəm, ona bir qılınc zərbəsindən «.artıq vurmayın

Amma əfsus ki, li (ə) daha yaşamadı. Və Ramazan ayının 21-də, 63 yaşında əbədiyyətə qovuşdu. Onun pak bədəni gizlin şəkildə Nəcəfi-əşrəf şəhərində .torpağa tapşırıldı

IMAMDAN QISA K **LAMLAR**

.Mömin sifətli cahillərdən çəkinin. Çünki onlar Allahdan qorxmurlar .1

Allaha and olsun ki, məni mömindən başqa heç kim sevməz və münafıqdən .2 .başqa heç kim mənə düşmənçilik etməz

.Dünyadan istifadə edin! Dünyadan ən yaxşı istifadə günahdan çəkinməkdir .3

.Allah yanında namazdan xeyirli və yüksək bir əməl yoxdur .4

Müsəlman müsəlmanın aynasıdır. gər bir müsəlman səhv etsə, xoşluqla ona .5 .nəsihət edib, yol göstərin

AŞAĞIDAKI SUALLARA CAVAB VERIN

?Niyə li (ə) Kəbədə dünyaya gəldi .1

?Peyğəmbərimiz (s) li (ə) haqqında öz əshabına nə buyurdu .2

li (ə) nə üçün düşməninin sinəsinin üstündən qalxaraq həmin anda onu .3 ?öldürmədi

?  li əleyhissalamın əhəmiyyətli sifətləri hansılardı .4

?Qədiri-xum hadisəsini necə qiymətləndirirsiniz .5